# Boks üzrə Azərbaycan çempionatı

Kişi və qadın boksçular arasında keçirilən Azərbaycan çempionatına yekun vurulub. Ölkənin müxtəlif şəhər və rayonlarının klublarını, həmçinin idman cəmiyyətlərini təmsil edən yarışda 33 komandanın 166 idmançısı qüvvəsini sınayıb. 7 gün davam edən turnirin son günündə kişilər arasında 10 çəki dərəcəsi üzrə mükafatçılar müəyyənləşib.

Həlledici döyüşlərdə qalib gələn Bilalhəbaşi Nəzərov, Nicat Hüseynov, Məhəmmədəli Aşırəliyev, Maqsud Xasmetov, Nəbi İsgəndərov, Abbasqulu Şadlinski, Murad Allahverdiyev, Ramal Həsənli, Rauf Rəhimov və Batraz Mildzoxov çempion tituluna sahib olublar.

Turnirin komanda hesabında “Neftçi” İdman Klubu 6 qızıl, 2 gümüş və 5 bürünc medalla birinci yeri tutub. İkinci pilləyə “Dəmir Yumruq” Boks İdman Klubu (2-1-2) yiyələndiyi halda, “üçlüy”ü MOİK (1-1-5) qapayıb.

Çempionatda ən yaxşı boksçu adına Məhəmmədəli Aşurəliyev layiq görülüb. Qalib Əbiyev ən yaxşı rinq, Elxan Quliyev ən yaxşı yan hakim seçilib.

Qadın boksçuların mübarizəsində Lalə Mədətova (48 kq), Cəmilə Sultanlı (51 kq), Emili Rzayeva (60 kq) və Fatimə Mehdiyeva (65 kq) çempion tituluna yiyəleniblər.

*Azərbaycan çempionatı*

**Kişilər. Final**

**50 kq**

Bilalhəbaşi Nəzərov (“Dəmir Yumruq” BİK) – Ucal Musayev (Naxçıvan MR) – 5:0

**55 kq**

Nicat Hüseynov (“Neftçi” İK) – Amin Məmmədzadə (“Qızıl əlcək” İK) – 5:0

**60 kq**

Məhəmmədəli Aşırəliyev (“Neftçi” İK) – Məhəmmədəli Qasımzadə (“Dəmir Yumruq” BİK) – 5:0

**65 kq**

Maqsud Xasmetov (“Abşeron” İK) – Malik Həsənov (“Neftçi” İK) – 4:1

**70 kq**

Sərxan Əliyev (“Neftçi” İK) – Nəbi İsgəndərov (“Neftçi” İK) – 0:5

**75 kq**

Abbasqulu Şadlinski (“Dəmir Yumruq” BİK) – Rasim Çobanlı (DİN İC) – ikinci zədələndiyi üçün birinci qalib elan olunub

**80 kq**

Murad Allahverdiyev (“Neftçi” İK) – Həsən Osmanlı (“Qızıl əlcək” İK) – 5:0

**85 kq**

Ruslan Qəhrəmanov (DİN İC) – Ramal Həsənli (MOİK) – 0:5

**90 kq**

Sürət Qarayev ("Səbail" İK) – Rauf Rəhimov ("Neftçi" İK) – 0:5

**+90 kq**

Batraz Mildzoxov (ABF) – Səbuhi Əlizadə (Gəncə) – birinci tam üstünlüklə qalib gəlib.

**Bütün mükafatçılar**

**50 kq**

1. Bilalhəbaşi Nəzərov ("Dəmir Yumruq" BİK)

2. Ucal Musayev (Naxçıvan MR)

3. Yusif Soltanov ("Neftçi" İK)

3. Kənan Babayev (MOİK)

**55 kq**

1. Nicat Hüseynov ("Neftçi" İK)

2. Amin Məmmədzadə ("Qızıl əlcək" İK)

3. Zidan Hünbətov ("Dəmir Yumruq" BİK)

3. Zəlimxan Süleymanov (MOİK)

**60 kq**

1. Məhəmmədəli Aşırəliyev ("Neftçi" İK)

2. Məhəmmədəli Qasımzadə ("Dəmir Yumruq" BİK)

3. Tağı Nəsibov ("Neftçi" İK)

3. Tayfur Əliyev ("Neftçi" İK)

**65 kq**

1. Maqsud Xasmetov ("Abşeron" İK)

2. Malik Həsənov ("Neftçi" İK)

3. Əli Abdullayev ("Zabit Səmədov" DM)

3. Cəlal Qurbanov (MOİK)

**70 kq**

1. Nəbi İsgəndərov ("Neftçi" İK)

2. Sərxan Əliyev ("Neftçi" İK)

3. Nicat Alırzayev ("Dəmir Yumruq" BİK)

3. Vüqar Məmmədov (DİN İC)

**75 kq**

1. Abbasqulu Şadlinski (“Dəmir Yumruq” BİK)

2. Rasim Çobanlı (DİN İC)

3. Nurlan Məlikov (Sumqayıt)

3. Novruzəli Quliyev (MOİK)

**80 kq**

1. Murad Allahverdiyev (“Neftçi” İK)

2. Həsən Osmanlı (“Qızıl əlcək” İK)

3. Ayxan Həsənov (FHN İK)

3. Fəqan Məmmədov (MOİK)

**85 kq**

1. Ramal Həsənli (MOİK)

2. Ruslan Qəhrəmanov (DİN İC)

3. Seyfəli Yusifzadə (KNOUT)

3. İbrahim İsmayılov (Z-1 İK)

**90 kq**

1. Rauf Rəhimov (“Neftçi” İK)

2. Sürət Qarayev (“Səbail” İK)

3. Bayram Əhədov (“Neftçi” İK)

3. Hüseyn Hüseynli (AHİTA)

**+90 kq**

1. Batraz Mildzoxov (ABF)

2. Səbuhi Əlizadə (Gəncə)

3. Kənan Nəcəfov (Z-1 İK)

3. Mirxəyal Məmmədov (Gəncə)